# Akif Rəfiyev: Ölkəmizin mövqeyi ədalətlidir və biz torpaqlarımızı azad edəcəyik

***İşğalçı Ermənistanın hərbi təxribatlarının nəticəsi olaraq başlamış II Qarabağ müharibəsi ilə bağlı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin xalqa müraciətlərində, bir sıra xarici media vasitələrinə verdiyi müsahibələrdə və sosial şəbəkədə paylaşdığı açıqlamalarda bəyan edilmiş həqiqətlərə münasibətini bildirən I Qarabağ müharibəsi veteranı, Binəqədi Rayon Ağsaqqallar Şurasının sədri Akif Rəfiyev bildirdi:***



– 30 ildən artıq müddətdə davam edən Dağlıq Qarabağ münaqişəsinin ilk dövrlərində təcavüzkar Ermənistan öz havadarlarının köməyi ilə Azərbaycan ərazisinin 20 faizini işğal etmişdir. BMT TŞ-nın qətnamələrinə və bu qurumun verdiyi mandata uyğun olaraq, ATƏT-in Minsk qrupu 28 ildir ki, işğalçı Ermənistanın silahlı qüvvələrinin ərazilərimizdən çıxarılması istiqamətində imitasiyaedici, təsirsiz və nəticəsiz danışıqlarla münaqişənin həllini, əslində, düyünə salmışdır.

Azərbaycan Prezidenti İlham Əliyevin Qarabağ cəbhəsində müharibənin yeni mərhələsinin başlanması və gedişi ilə bağlı xalqa müraciətlərində, xarici KİV-lərə, xüsusən ayrı-ayrı ölkələrin nüfuzlu telekanallarına verdiyi müsahibələrdə, digər açıqlama və bəyanatlarında əksini tapmış tarixi faktlar, çağdaş durum barədə gerçəklər Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətini və həyasız erməni yalanlarını bütün dünyada ifşa etmək, ölkəmizin haqq işinə geniş dəstək qazandırmaq baxımından misilsiz dərəcədə əhəmiyyətlidir.

Oktyabrın 17-də Prezident İlham Əliyev xalqa növbəti müraciətində gecə yarısı Gəncənin yenidən uzaqvuran raketlərlə atəşə tutulması nəticəsində baş vermiş qanlı faciəni müharibə cinayəti kimi bütün dünyaya bəyan etdi, düşmən tərəfin döyüş meydanlarında layiqincə cəzalandırıldığını, günahsız Gəncə qurbanlarının qisasının da alındığını vurğuladı. Dövlət başçısının Füzuli şəhərinin və bir neçə məntəqənin azad edilməsi xəbərini açıqlaması isə düşmənin məğlubiyyətinin dərinləşdiyini təsdiq etməklə yanaşı, xalqımızın qələbəyə inamını da qətiləşdirdi.

Son günlərdə dövlət başçısının Türkiyənin, Rusiyanın və digər ölkələrin televiziya kanallarına, xəbər agentliklərinə verdiyi müsahibələrində, sosial şəbəkə ilə paylaşmalarında da münaqişənin tarixi səbəblərindən başlamış, indiki hərbi əməliyyatların mənzərəsinə, Moskvada üçtərəfli qaydada əldə edilmiş atəşkəs haqqında razılaşmanın pozulmasına, işğaldan azad olunan torpaqlarda görülməsi zəruri olan işlərə qədər beynəlxalq aləmdə maraq doğuran bir çox önəmli məsələlərə aydınlıq gətirilmişdir.

Akif Rəfiyev Prezident İlham Əliyevin beynəlxalq aləmə dönə-dönə anlatdığı kimi, bu uzun müddətdə Azərbaycanın siyasi və diplomatik normalar çərçivəsində bütün beynəlxalq danışıqların, münaqişənin sülh yolu ilə həlli variantlarının, müxtəlif razılaşmaların şərtlərinə və tələblərinə ciddi əməl etdiyini xatırladaraq dedi:

– Xalqımızın öz taleyini etibar etmiş olduğu Azərbaycan rəhbərləri-- 10 il müddətində ümummilli lider Heydər Əliyev və sonrakı 17 ildə Prezident İlham Əliyev səbr və təmkinlə Dağlıq Qarabağ münaqişəsinin qan tökülmədən, sülh yolu ilə həllinə çalışmışlar. Düşmən ölkənin müharibə caniləri olan və sonra küçə diplomatiyasından gələn məsuliyyətsiz, avantürist rəhbərləri isə münaqişənin həllindən qaçmış, dəfələrlə Azərbaycanı təxribata çəkməyə cəhd göstərmişlər. Nəhayət, düşmən tərəfin son hərbi təxribatlarına cavab olaraq, Ali Baş Komandanın əmri ilə şanlı ordumuz torpaqlarımızı işğaldan azad etmək uğrunda şərəf və ləyaqət mübarizəsinə başlamışdır.

Bu savaş əsl Vətən müharibəsidir. Güclü, sarsıdıcı zərbələr alan, külli miqdarda döyüş texnikası, hərbi sursat, minlərlə canlı qüvvə itirən düşmən savaşın ilk günlərindən bütün beynəlxalq qurumlara, dünyada hegemon dövlətlərə müraciət edərək humanitar atəşkəs haqqında sənədin imzalanmasına nail oldu. Lakin üstündən heç bir gün keçməmiş erməni işğalçıları hədsiz bir quduzluqla, müharibə qanunlarına əməl etmədən gecə saatlarında Gəncə, Mingəçevir və Yevlax şəhərlərini, beynəlxalq enerji dəhlizini balastik raketlərlə vurdular. Cəbhəboyu rayonların dinc sakinləri isə döyüş əməliyyatları başlanandan ağır arilleriya və iriçaplı silahların davamlı atəşi altındadır.

Bütün bunları söyləməklə biz – Binəqədi rayon ağsaqqalları, I Qarabağ müharibəsinin veteranları Prezident İlham Əliyevin münaqişəni hərbi-siyasi yolla həll etməklə bağlı qətiyyətli mövqeyini dəstəkləyir, xalqımızı bu müqəddəs müharibədə birliyə, təmkinə, hər kəsi bacardığı işi fədakarlıqla yerinə yetirməyə çağırırıq. Eyni zamanda, Qarabağ cəbhəsində yenidən qan tökülməsinə bais olan, silahlı qüvvələri savaş meydanında uduzub geri çəkildikcə Azərbaycanın dinc əhalisinə atəş açmağa əmr verən, günahsız insanların həlak olmasına, yaralanmasına, kütləvi dağıntılara səbəb olan cinayətkar Ermənistan rəhbərliyinin məsiliyyətsizliyini, vəhşiliyini qətiyyətlə lənətləyirik. Dünya ölkələrinin rəhbərlərini isə bu vandallıq aksiyalarına siyasi qiymət verməyə çağırırq.

Müsahibimiz sonda söylədi: "Qoy erməni faşistləri və onların havadarları, eləcə də bütün dünyanın haqsevər insanları bilsinlər ki, Azərbaycan xalqı ata-babalarımızın min illərdən gələn müqəddəs əmanətini – halal torpaqlarının bir qarışını da düşməndə qoymayacaq. Müzəffər ordumuz döyüş meydanında qazandığı qələbələri ilə 30 ildən bəri işğal altında xarabalığa çevrilmiş bütün ərazilərimizdə Azərbaycan bayrağını inamla, qürurla dalğalandıracaq. Son Qələbə bizimlədir. Yaşasın Azərbaycan Ordusu! Qarabağ Azərbaycandır!".

***Hazırladı:***
***T.AYDINOĞLU, "Xalq qəzeti"***

Xalq qəzeti 2020.- 20 oktyabr.- S.6.